DOI: https://doi.org/10.36719/2663-4619/85/45-51

**Kifayət Qurban qızı Mənsimova**
Azərbaycan Dövlət Pedaqoji Kolleci
kifayetmnv@gmail.com

# ŞƏXSİYYƏTİN İNKİŞAFINA VƏ FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR

## Xülasə

Məqalədə qeyd olunur ki, şəxsiyyət öz hərəkətlərinə cavabdeh, şüura, mənliyə malik olan adamdır. Şəxsiyyət illərlə psixoloqların və pedaqoqların araşdırma mövzusu olmuşdur. Çağdaş dövrümüzdə şəxsiyyətin formalaşmasına, inkişafına təsir edən amillər tədqiqat mövzusu kimi aktuallığını qoruyub saxlamaqda davam edir.

Təqdim olunan məqalədə müəllif şəxsiyyətin öyrənilməsinin mərhələlərini, şəxsiyyətlərin xarakteristikasını araşdırmışdır. Eyni zamanda müəllif insanların fərd kimi inkişafında bioloji cəhətlərin təsirini də tədqiq edərək elmi ictimaiyyətə çatdırmağa çalışmışdır.

Müəllif məqalədə qeyd edir ki, şəxsiyyətin təşəkkül və formalaşmasında inteqrativ sistemlərin rolu az da olsa öyrənilsə də, onun şəxsiyyət kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edən özünügerçəkləşdirmə sistemli şəkildə tədqiq edilməmişdir.

***Açar sözlər:*** *şəxsiyyət, fəlsəfi-ədəbi mərhələ, klinik mərhələ, eksperimental mərhələ, irsiyyət və genetika, özünügerçəkləşdirmə, özünəməxsusluq*

**Kifayat Gurban Mansimova**
Azerbaijan State Pedagogical College
kifayatmnv@gmail.com

## Factors affecting personality development and formation

## Abstract

It is mentioned in the article that a personality is a person who is responsible for his actions, has consciousness and self. Personality has been the subject of research by psychologists and educators for years. Factors affecting the formation and development of personality in our modern era continue to maintain their relevance as a research topic.

In the presented article, the author investigated the stages of personality study, personality characteristics. At the same time, the author tried to please the scientific community by studying the influence of biological aspects in the development of people as individuals.

The author notes in the article that although the role of integrative systems in the formation and formation of personality has been little studied, self-actualization, which is important in its formation as a personality, has not been systematically studied.

***Keywords:*** *personality, philosophical-literary stage, clinical stage, experimental stage, heredity and genetics, self-realization, uniqueness*

## Giriş

"Şəxsiyyət insanın psixoloji siması olub, şüura, mənliyə malik olan, öz hərəkətlərinə cavabdeh, ictimai münasibətlərin fəal iştirakçısı olan adamdır. Şəxsiyyət müəyyən ictimai-tarixi dövrdə yaşayıb fəaliyyət gösrərən, gerçəkliyi dərk edib müəyyən istiqamətdə dəyişdirən, ünsiyyətə girməyi bacaran konkret canlı insandır" (1).

İnsanın şəxsiyyəti birbaşa və dolayı mənada onun siması, sifətidir. Birbaşa mənada insanın siması, sifəti onun başlıca identifikatorudur.

Şəxsiyyət problemi elmin müxtəlif sahələrində çalışan alim və mütəfəkkirlərin illərlə diqqət mərkəzində dayanan mühüm problemlərdən biri olmuş və müasir dövrdə də öz aktuallığını saxlamaqdadır. Müasir psixologiyada şəxsiyyət, onun fəallığı, formalaşması, strukturu kimi

məsələlər, ümumiyyətlə şəxsiyyət anlayışının mahiyyəti barədə müxtəlif fikirlər irəli sürülür. Bu bir daha həmin problemin mürəkkəb və çətin olduğunu təsdiq edir.

"Şəxsiyyətin öyrənilməsində üç mərhələ müşahidə olunur:

Fəlsəfi-ədəbi mərhələ; başlanğıcı lap qədimlərə gedir. Diqqət mərkəzində insanın sosial və mənəvi xassələrinin öyrənilməsi və bunların davranışlarda əks olunması problemləri dururdu... Bu anlayışın məzmununa bioloji və sosial xüsusiyyətlər, davranışlar, mədəniyyət və s. bir çox anlamlar daxil edilirdi.

Klinik mərhələ; başlanması XIX əsrin birinci onilliyi hesab olunur. Mərhələnin yaranması səbəbi həkim-psixiatrların şəxsiyyət probleminə maraqlarının artmasında idi...

Eksperimental mərhələ; XX əsrin başlanğıcında başlamış və inkişafı A.F.Lazurski, Q.Oliport, P.Kettel kimi alimlərin adları ilə bağlıdır. Yaranması o dövrlərdə geniş yayılmış atomistik yanaşmanın insan şəxsiyyətinin öyrənilməsindəki səmərəsizliliyi ilə şərtlənmişdi. Atomistik yanaşmada insan şəxsiyyətinin ayrı-ayrı proseslərin məzmununda öyrənilməsi nəzərdə tutulurdu..." (Vəliyev, Mustafayev, 2015:206).

İnsanlar təkcə gözlərinin rənginə, səslərinin tembrinə, barmaq izlərinə və s. görə deyil, şəxsiyyətlərinin xarakteristikasına görə də bir-birlərindən fərqlənirlər. İnsanları bu və ya digər biofiziki xüsusiyyətlərinə görə xarakterizə etmək olduqca çətindir.

Şəxsiyyət anlayışı mürəkkəb anlayışdır. Onun adekvat şəkildə anlaşılmasının çətinliyi bir sıra amillərlə bağlıdır. Həmin mühüm amillərdən bir neçəsini nəzərdən keçirək:

1. İnsan şəxsiyyəti maddi və toxunula bilən, hiss edilən deyildir. O, bir sıra amillərin, şəraitin, imkanların və determinantların təsiri altında formalaşan psixoloji törəmədir;

2. İnsan şəxsiyyəti bir sıra amillərin təsirinə məruz qalsa da, yalnız onlardan asılı bir törəmə kimi şərh oluna bilməz, çünki o, formalaşdığı həmin əsası dialektik olaraq rədd edir;

3. İnsan davranışının determinasiyasında şəxsiyyətin mühüm əhəmiyyət kəsb etməsi barədə çox sayda nəzəriyyə və konsepsiya mövcuddur ki, bunların bir çoxunun "şəxsiyyət" anlayışını şərh etməsi ziddiyyətlidir;

4. Nəhayət, şəxsiyyəti anlamaq insan fenomenini anlamaqla birbaşa əlaqədardır. Şəxsiyyət yalnız o zaman insanın əsası, özəyi kimi, onun başlıca parametri, onun eyniləşdirmə vasitəsi kimi şərh oluna bilər ki, antropologiya və insan haqqında biliklər insanın öz təbiətini anlamaq səviyyəsinə yüksəlmiş olsun. Lakin bütün bu qeyd olunanlar heç də şəxsiyyətin tədqiqi imkanlarının mümkün olduğunu rədd etməyə imkan vermir, əksinə şəxsiyyət problemi barədə son nəzəri və eksperimental tədqiqatlar onun öyrənilməsi imkanlarını artırır.

Uşağın fiziki inkişaf şkalasında üç yaşdan altı yaşadək davam edən məktəbəqədər yaş dövrü inkişafda məhsuldar bir mərhələ kimi nəzərdən keçirilir. Bu illər ərzində əldə edilən psixi xassə və keyfiyyətlər uşağın şəsiyyət kimi təşəkkülündə və intellektual inkişafında olduqca əhəmiyyətlidir.

"Şəxsiyyət şagirdin konkret ictimai həyat şəraitində, onun təlim-tərbiyəsində formalaşır. Psixologiya tarixində bu məsələnin həllində şəxsiyyətin inkişafını sosiogenetik və biogenetik konsepsiya adlanan iki istiqamət olmuşdur. Biogenetik konsepsiya insan şəxsiyyətinin formalaşması, şəxsi fəallığın məhrum şəkildə, bioloji amillərin məhsulu kimi təqdim edilir" (2).

Psixoloqlar məktəbəqədər yaş dövründə olan uşağı şəxsiyyət kimi formalaşması baxımından üç mərhələyə ayırırlar. Birinci mərhələ 3-4 yaşları əhatə etməklə uşaqlarda emosional özünütənzimetmənin möhkəmlənməsi ilə xarakterizə olunur. 4-5 yaşları əhatə edən ikinci mərhələ əxlaqi özünütənzimetmə, sonuncu, 5-6 yaşları əhatə edən mərhələ isə uşaqda psixoloji baxımdan işgüzar şəxiyyət keyfiyyətlərinin formalaşması adlanır.

Məktəbəqədər yaşda uşaqlar öz davranlşlarına nəzarət etməyə nail olur, başqalarının onun davranışına verdiyi qiyməti anlayır. Müəyyən əxlaq normaları haqqında bilikləri, əxlaqi vərdişləri onun özünün daxili mövqeyi, müsbət emosional münasibəti ilə müəyyən olunur. Bu münasibətlərin mənbəyində uşağın təlimi və tərbiyəsi ilə məşğul olan yaşlılar durur. Onların əxlaqi təcrübəsi yaşlılardan uşaqlara ötürürlür, ünsiyyət prosesində bu normaların mənimsənilməsi baş verir. Uşağın müşahidəçilik və təqlidçilik qabiliyyəti, rəğbətləndirmə və cəzalandırma sistemi bu prosesdə təsirli vasitələr kimi xüsusilə əhəmiyyətlidir.

“Məlumdur ki, uşaq məhz böyüklərin köməyi ilə ətraf gerçəkliyi özü üçün kəşf edir, dəyişir və bu fonda təkmilləşir. Bu prosesdə təlim və tərbiyə şəxsiyyətin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Bununla belə inkişaf müxtəlif həyat situasiyalarının təsiri ilə dəyişə bilər. Bu danılmaz faktdır” (Əliyev, Əliyeva, Cabbarov, 1961:44).

İnsan şəxsiyyətinin inkişafında ünsiyyətin müstəsna rolu vardır. Məktəbəqədər dövrdə uşağın şəxsiyyətlərarası əlaqələrinin tarixini və məzmununu bilməklə biz onun şəxsiyyət kimi formalaşmasının xüsusiyyətləri haqqında çox şey öyrənə bilərik. Ünsiyyət uşağın həyatında tələbat növlərindən biri kimi çox erkən dövrlərdən özünü büruzə verir. Onun ilk təzahürləri uşağın özünü və başqalarını tanımasında və qiymətləndirmədə aşkara çıxır. Məktəbəqədər dövrdə, o cümlədən körpəlik və ilk uşaqlıq dövründə uşağın şəxsiyyət yönümündə inkişafında və formalaşmasında baş rolun ifaçısı anadır.

Onun uşaqla ünsiyyətinin xarakteri bu və ya digər şəxsiyyət keyfiyyətlərinin, davranış formalarının meydana gəlməsini şərtləndirir. Bu dövrdə uşağın ana tərəfindən təriflənməsi və bəyənilməsi onun davranışının əsas stimullarından biri olur.

Uşağın yaxın sosial əhatəsindəki doğma adamların qiymətləndirici mühakimələri də faydalı amil hesab olunur. Uşağın ailədə ilk dövrlər mənimsədiyi davranış normaları içərisində məişət-gigiyenik normalar, habelə gün rejimi ilə bağlı tələblər, əşyalar və heyvanlara qarşı münasibətlə bağlı davranış formaları üstün yer tutur. İnsanlarla davranışda, onlara müraciətdə əxlaq normaları artıq məktəbəqədər yaşın sonunda müşahidə olunmağa başlayır. Onlar uşaqlar tərəfindən anlaşılması xeyli çətin olsa da, böyük məktəbəqədər yaşlı uşaqlar rollu-süjetli oyunlar zamanı oyun qaydalarını mənimsəməklə onlara yiyələnmiş olurlar. Müşahidələr vasitəsilə uşaqlarda əxlaq qaydaları haqqında ilk təsəvvürlər yaranır və onlar tədricən davranış normalarına çevrilir.

“V.A.Suxomlinski qeyd edirdi ki, uşqaların əsas tərbiyə məktəbi ər və arvad, ata və ana arasındakı qarşılıqlı münasibətdir. Odur ki, ailədə tərəflərin əsas başlıca rolu bir-birini qavramaq və anlamaqdır. Bu anlama və münasibət ailənin gələcək planlarını qurmaqda vacibdir (3).

A.Adler şəxsiyyətin formalaşmasına təsir edən üç mühüm münasibəti göstərir:

1. Özünün gücsüzlüyünü hiss etmək;
2. Təkmilləşməyə, üstünlük əldə etməyə cəhd;
3. Birgəlik hissi və ya sosial hissə.

Məlumdur ki, insan dünyaya bir fərd kimi gəlir və ictimai münasibətlər sistemində şəxsiyyət kimi formalaşır. Burada tərbiyə prosesi həlledici rol oynayır. Ona görə də uşağın bir şəxsiyyət kimi formalaşmasında mənbələri, şəraiti bilmədən tərbiyənin psixoloji mexanizmini aşmaq mümkün deyildir.

Uşaq və yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllimin peşə səviyyəsi ilə eyni dərəcədə onun şəxsi keyfiyyətləri müstəsna rol oynayır.

“İnsan şəxsiyyətinin formalaşmasında təhsil ən mühüm vasitə kimi çıxış etmiş, tərbiyəçi-müəllim şəxsiyyətinin bu sahədə çox vacib, əvəzsiz bir amil olduğu müəyyənləşdirilmişdir. Klassik pedaqogikanın görkəmli nümayəndəsi Y.A.Komenskinin “Müəllimlər insanlar arasında ən seçilmiş şəxslər olmaqla, öz yaxşı əxlaqları ilə təqdirə layiqdirlərsə, bu şagirdlərin həqiqi əxlaqi biliklərə yiyələnmək üçün ən yaxşı vasitə olacaqdır” ifadəsi ondan çox-çox əvvəl Azərbaycan mütəfəkkirləri, şair və filosoflar tərəfindən qeyd edilmişdir. Məsələn, Nəsirəddin Tusi əsərlərində təhsil vasitəsilə insanın səadətə (kamilliyə) qovuşacağını dönə-dönə vurğulamışdır.

Tusinin əsərlərindən məlum olur ki, hələ XIII-XIV əsrlərdə Azərbaycanda şəxsiyyətin formalaşmasının başlıca yolu idrak, dünyanı dərk etməyin başlıca vasitəsi təhsil, biliklərə yiyələnmə və məktəb tərbiyəsi olmuşdur. Bu dövrdə məscidlər yanında açılan məktəblərdə yalnız “Quran”, yaxud dini elmlər deyil, təbabət, kimya, geologiya və s. fənlər tədris olunmuşdur.

Tədqiqatlardan aydın olur ki, kitabxana, məktəb, rəsədxana və digər təhsil ocaqları vasitələrindən başqa, imkansız, valideynsiz uşaqların da təhsil almaları, şəxsiyyət kimi formalaşmaları imkanı əldə etmələri üçün yetimxanalar yaradılması təcrübəsi də olmuşdur

N.Gəncəvinin, Ə.Xəqaninin, İ.Nəsiminin, S.Təbrizinin, S.Şirvaninin, M.Sidqinin və başqalarının əsərlərində şəxsiyyət, onun formalaşmasının əsas şərtləri haqqında qiymətli fikirlər mühüm yer tutmuşdur" (5).

Tərbiyənin roluna dair həm qədim dövrlərdə, həm də sonralar müxtəlif fikirlər irəli sürülmüş, uzun mübahisələr və tədqiqatlar aparılmışdır. Hələ qədim yunan mütəfəkkirləri Sokrat, Platon, Aristotel insan həytında tərbiyənin böyük rolu olduğunu göstərmişlər. Platon "Qanunlar" əsərində yazmışdır: "İnsanı həqiqətən tərbiyə etsək, o, ən sakit və ilahi məxluq olar".

Şəxsiyyətin inkişafında və formlaşmasında irsiyyətin rolu böyükdür. İnsan bioloji varlıq kimi doğulur. Buna görə də irsiyyət qanunu ona öz təsirini göstərir. İrsiyyətin maddi daşıyıcıları genlərdir. Fiziki əlamətlər (qamət, sifət quruluşu, gözün və saçın rəngi), habelə fizioloji əlamətlər (sinir sisteminin tipi, sinir hüceyrələrinin miqdarı və s.) insana irsən keçir.

İnsanın təbii imkanları dəyişməz deyildir. Onlar həyat şəraitinin, tərbiyə və mühitin təsiri ilə dəyişə bilər. Şəxsiyyətin formalaşmasına sosial mühit daha çox təsir göstərir. Sosial mühit iki cürdür: mikro və makromühit. Mikromühit insanı bilavasitə əhatə edən mühitdir (ailə, məktəb, məhəllə, yoldaşlıq mühiti). Makromühit isə cəmiyyət həyatıdır, geniş sosial mühitdir. İnsanın inkişafına hər iki mühit güclü təsir göstərir. Kiçik yaşlarda mikromühitin təsiri böyükdür.

Mikromühit geniş mənada sosial mühitin tərkib hissəsidir. Cəmiyyətdə gedən proseslər ailədə, məktəbdə, əmək kollektivlərində də özünü göstərir. Cəmiyyətin demokratik xarakteri, hüququn aliliyi, ədalət prinsipləri şəxsiyyətin inkişafı üçün böyük əhəmiyyətə malikdir.

Cəmiyyət həyatı, onun tələbatları, maddi və mənəvi sərvətləri tərbiyə işində həlledici şərtdir. Şəxsiyyətin tələbatlarını, mənəvi sərvətlərini də cəmiyyət müəyyən edir.

Şəxsiyyətin inkişafında və formalaşmasında tərbiyə böyük təsir gücünə malikdir. Mühit insana kortəbii, bəzən də mənfi təsir göstərdiyi halda, tərbiyə məqsədyönlü və planlı təsir edir. Tərbiyə insanın təbii imkanlarının üzə çıxarılması və inkişafına kömək göstərir. O, uşaqların həyat və fəaliyyətini təşkil etməklə onların maraq və qabiliyyətlərinin inkişafına əlverişli şərait yaradır. Tərbiyə şəxsiyyəti "layihələşdirir", onun ahəngdar inkişafını istiqamətləndirir.

Uşaq müxtəlif fəaliyyət növlərində iştirak etməklə müxtəlif tərbiyə keyfiyyətləri, düzgün davranış adətləri qazanır, ictimai varlıq kimi, şəxsiyyət kimi formalaşır. Cəmiyyətin, müəllim və valideynlərin tələbləri tədricən insanın daxili tələblərinə və mövqeyinə çevrilərək onun rəftar, davranış və fəaliyyətini tənzim edir. Beləliklə, təhsil özünütəhsillə, tərbiyə isə özünütərbiyə ilə qovuşur.

"İnsan mühitin və tərbiyənin passiv obyekti kimi yox, fəal subyekti kimi çıxış edir, mühitə və tərbiyə prosesinə, özünün şəxsiyyət kimi formalaşmasına fəal təsir göstərir. Tərbiyə uşaq və yeniyetmələri ancaq obyekt kimi qəbul edərsə, çox şeydən məhrum olar, öz məqsədinə çata bilməz. İnsanın şəxsi fəallığı müxtəlif formalarda təzahür edir: zehni, əmək, fiziki, bədii, ictimai-siyasi fəallıq. Uşaq və gənclərin şəxsi fəallığının əsas vasitəsi onları müxtəlif fəaliyyət növlərinə cəlb etməkdir.

Təlim fəaliyyəti insanın bilik və bacarıqlara yiyələnməsinə, ideya-mənəvi tərbiyəsinə və psixi inkişafına kömək göstərir. Əmək fəaliyyəti gənc nəslin əmək və peşə hazırlığında, əxlaqi və fiziki tərbiyəsində, xarakter və iradənin formalaşmasında böyük rol oynayır. İctimai fəaliyyət prosesində yeniyetmə və gənclər sosial təcrübə qazanır, ünsiyyət mədəniyyətinə, kollektivçilik keyfiyyətlərinə yiyələnirlər" (6).

Psixologiyada şəxsiyyətin inkişafının bir neçə amili eyni vaxtda fərqləndirilir. Bütün şəxsi yetkinlik prosesi məhz onlardan gəlir:

1. Daxili;
2. Xarici;
3. Bioloji;
4. Sosial.

*Daxili məqamlar* şəxsiyyətin bütün həyatı boyu formalaşmasını müəyyən edən amillərdir. Onlara, əsasən, şəxsiyətin bütün həyatı boyu inkişafını, formalaşmasını müəyyən etmək, onun bu və ya digər meyl və qabiliyyətlərini, psixoloji, mənəvi qavrayış səviyyəsini dərk etmək olur.

Şəxsiyyətin inkişafı və formalaşmasının daxili amillərinə fərdin öz fəaliyyəti daxildir. İnsanın şəxsiyyətinin inkişafında bu amilin rolu özünü tərbiyə etməsindədir. Buraya həm də subyektin nəyəsə şəxsi istəkləri, onun əmr və nizamnamələrə münasibəti aid edilə bilər.

*Xarici amillər.* Daha ətraflı nəzərdən keçirsək xarici amillər və fərdin inkişafı üçün ilkin şərtlər, daha sonra valideyn və pedaqoji təhsil, hətta bütövlükdə müasir cəmiyyətin bütün təhsil sistemi onlara etibarlı şəkildə aid edilə bilər. İnsanın şəxsiyyətinin inkişafında xarici amillərlə, həqiqətən də bir-birinin yanında durmasına baxmayaraq, sosial amilləri qarışdırmağa ehtiyac yoxdur.

*İrsiyyət və genetika*

İnsanların bir fərd kimi inkişafında bioloji cəhət də az əhəmiyyət kəsb etmir. Bu, ilk növbədə, valideynlərin və əvvəlki qan nəsillərinin DNT-si ilə ötrülən irsiyyəti əhatə edir. Genetik səviyyədə bəzi fitri xarakter xüsusiyyətləri və meylləri (istedadlar) uşağa valideynlərindən ötürülür.

İnsanın bir şəxsiyyət kimi formalaşması prosesinə təsir edən amillər haqqında müxtəlif fikirlər mövcuddur. Əsrlər, min illər boyu bu amillər içərisində üstünlük irsiyyətə verilmiş və belə bir fikir irəli sürülmüşdür ki, valideynlərdə müsbət və mənfi nə varsa övladlara keçir. İrsiyyət nəzəriyyəsinin hakim olduğu dövrlərdə zəka sahibləri həmin nəzəriyyəni qəbul etməklə yanaşı, tərbiyəyə böyük əhəmiyyət verirdilər.

"İnsan şəxsiyyətinin formalaşmasına fiziki mühitin təsiri də böyükdür. Aydındır ki, bizi əhatə edən təbii mühit daim bizim davranışımıza təsir edir... Məsələn, sivilizasiyaların, tayfaların, ayrı-ayrı əhali qruplarının meydana gəlməsini iqlimin təsiri ilə əlaqələndiririk. Müxtəlif iqlimlərdə böyümüş insanlar bir-birindən fərqlidirlər. Bunun ən parlaq nümunəsi dağ sakinlərinin, çöl sakinlərinin və cəngəllikdə yaşayan insanların müqayisəsidir. Təbiət bizə daim təsir edir və biz bu təsirə şəxsiyyət quruluşumuzu dəyişməklə cavab verməliyik" (7).

*Mədəniyyət amili* də insan şəxsiyyətinin formalaşmasında və inkişafında müəyyən dərəcədə rol oynayır. İstənilən mədəniyyət müəyyən sosial normalar toplusuna və ortaq dəyərlərə malikdir. Hər bir mədəniyyətin nümayəndəsi bu norma və dəyər sistemlərinə qarşı dözümlü olmalıdır. Bununla əlaqədar olaraq, cəmiyyətin mədəni təcrübə zamanı üzvlərinə aşıladığı ümumi mədəni dəyərləri təcəssüm etdirən modal şəxsiyyət anlayışı yaranır. Beləliklə, müasir cəmiyyət mədəniyyətin köməyi ilə ünsiyyətcil, asanlıqla sosial əlaqələr qurur, əməkdaşlığa dair bir şəxsiyyət formalaşdırmağa çalışır.

Sosial mühit insan şəxsiyyətinin formalaşmasında əsas rola malikdir. Etiraf etmək laımdır ki, bu amil fərdin şəxsi keyfiyyətlərinin formalaşması prosesində əsas hesab edilə bilər. Sosial mühitin təsiri sosiallaşma prosesi vasitəsilə həyata keçirilir. Şəxsi sosiallaşma müxtəlif formalarda ola bilər. Məsələn, sosiallaşma imitasiya, digər insanların reaksiyalarını nəzərə almaq, ümumiləşdirmə yolu ilə müşahidə olunur.

*Yaradıcılıq* da insan şəxsiyyətinin formalaşmasında və inkişafında böyük önəm kəsb edir. İki yaşdan yuxarı uşaqlara yardıcılıq amili müəyyən qədər təsir göstərə bilir. Rəsm əzmkarlığı, konsentrasiyanı və diqqəti artırır. Bu qabiliyyətlər müsbət nəticələr verir. Uşaq özünü əsl sənət adamı kimi göstərməyə çalışır. Teatra marağı artır, mahnılar ifa etmək, rəqs bacarığını göstərməyə meyillənir ki, bu da ona utancaqlığı aradan qaldırmağa imkan verir.

"Uşaq cəmiyyətdə böyüyür və inkişaf edir. Şəxsiyyətin formalaşmasına ətrafdakılar və ətraf mühitin təsiri var. Köprə iki yaşına qədər ailə ilə əhatə olunur. Uşaq bağçasında və məktəbdə uşaq cəmiyyətlə tanış olur. İntizam, müəyyən davranış qaydalarını öyrənir. Həmyaşıdları və tərbiyəçilərlə ünsiyyət onda ünsiyyət bacarıqlarını inkişaf etdirir" (8).

Professor B.H.Əliyev şəxsiyyət və onun təşəkkülü məsələsində, demək olar ki, əvvəlki tədqiqatlarından fərqli olan bir mövqe ortaya qoyur. O yazır ki, müasir elmin, o cümlədən psixologiya elminin mərkəzi, əsas problemi şəxsiyyətdir. Şəxsiyyət çox sirli, müəmmalı, ancaq mövcud olan möcüzələrin möcüzəsidir. Onun mahiyyətini açmağa çox cəhdlər edilməsinə baxmayaraq, bu günə kimi şəxsiyyət sirli bir dünya olaraq qalır.

"Həqiqətən də, bir sıra konsepsiyalarda şəxsiyyət haqqında ümumi məlumat verilir, lakin çəxsiyyətin öyrənilməsi istiqamətləri, genezisi göstərilmir. Professor B.H.Əliyevin "şəxsiyyət

probleminə yeni baxış" nəzəriyyəsində isə psixi inkişafla şəxsiyyətin inkişafının ayrı-ayrı məqamları tam differensasiya olunur, şəxsiyyətin təşəkkülündə mühüm rola malik amillər sistemi göstərilir" (2007:133).

Şəxsiyyətin formalaşmasına təsir edən müxtəlif amillər bütün tarixi dövrlərdə aktual olmuş, indi də aktualdır. Çünki bu amilləri müəyyən etməklə, onun inkişafının istiqamətlərini müəyyənləşdirmək, təlim-tərbiyə işini düzgün təşkil etmək olar.

Şəxsiyyətin təşəkkül və formalaşmasında inteqrativ sistemlərin rolu müəyyən dərəcədə öyrənilsə də, onun şəxsiyyət kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edən özünügerçəkləşdirmə sistemli tədqiqat obyekti olmamışdır. Məlumat üçün qeyd etməliyik ki, şəxsiyyətin özünügüerçəkləşdirməsi nəzəriyyəsinin meydana çıxması Amerikada yaranmış biheviorizmin alternativi kimi meydana gəlmiş və şəxsiyyətin formalaşmasında əsas cəhət kimi ortaya qoyulmuşdur.

"Məlumdur ki, biheviorizmin yaradıcılarından olan B.Skinner nəinki metaforik strukturlardan, həmçinin nəzəriyyələrdən birdəfəlik imtina edilməsinə cəhd göstərmişdir. O, birmənalı şəkildə bəyan edirdi ki, onun mövqeyi nəzəriyyədən daha çox praktik mövcudluğa əsaslanır. Şəxsiyyət, konkret mənada "özünəməxsusluq", Skinerə görə mövcud deyildir. "Özünəməxsusluq" və şəxsiyyət yalnız davranış aktlarının cəmi formasında mövcuddur" (2008:55).

Uşağın öz fəaliyyətini adekvat qiymətləndirə bilməməsi onun həm şəxsiyyət kimi formalaşması, həm də təlim prosesinə ciddi maneədir. Əgər o, özünü imkanlarından aşağı qiymətləndirərsə, deməli, fəaliyyəti zamanı öz qarşısına müvafiq bəsit məqsədlər qoyur, qüvvə və imkanlarından tam istifadə etmir.

Başqa bir halda, əgər uşaq öz bacarıq və imkanlarını yüksək qiymətləndirir, lakin fəaliyyət prosesində məqsədinə nail ola bilmirsə, bu xüsusiyyət onun sonrakı inkişafına mənfi təsir göstərir. "...məktəbəqədər yaşlı uşağın özünüqiymətləndirməsində adekvatlıq, obyektivlik, əsaslılıq kimi xüsusiyyətlərin formalaşması onların təlim fəaliyyətlərində müvəffəqiyyət qazanmaq üçün zəmin yaradır, uşaq şəxsiyyətinin hərtərəfli inkişafına təkan verir. Ancaq nəzərdən qaçırmaq olmaz ki, Z.Freydin sözləri ilə deyilsə, insan daim onu əhatə edən xarici və özünün daxili aləmi ilə münaqişə vəziyyətində olur.

Münaqişənin əsası uşaq vaxtı qoyulur və hələ körpə vaxtlarından həllini tapması insanın ömrünün sonuna qədər davam edir" (2008:73-74).

## Nəticə

Məqalədəki tədqiqatdan belə nəticə çıxartmaq olar ki, insanın siması onun başlıca identifikatorudur. İnsanın cəmiyyətdə düzgün tərbiyə edilməsindən çox şey asılıdır. O, ayrı-ayrı yaş dövrlərində fiziki, psixi və mənəvi cəhətdən müxtəlif xüsusiyyətlərə malik olur, xarakterində müəyyən dəyişikliklər yaranır. Buna görə də cəmiyyətin üzvü olan insan bilməlidir ki, hansı şəraitdə və hansı amillərin təsiri altında inkişaf edir, onun inkişafında irsiyyətin, mühit və tərbiyənin rolu nədən ibarətdir. Tərbiyə insan yaratmır, doğulmuş varlığın yaxşı və ya pis olmasına kömək edir.

Təlim-tərbiyə milli dəyərlərimiz olan adət-ənənələrə uyğun əsas keyfiyyətləri, insanın inkişafını formalaşdırır. Cəmiyyətdə yeni nəslin milli adət-ənənələr ruhunda tərbiyə edilməsi hərtərəfli mənəvi keyfiyyətlərin formalaşmasında mühüm rol oynayır.

## Ədəbiyyat

1. http://kayzern.az»blog»şəxsiyyət...
2. Vəliyev, M., Mustafayev, A. (2015). Bakı, Elm nəşriyyatı, 206 s.
3. http//aztehsil.com»psixoloq»10...2
4. Əliyev, B., Əliyeva, K., Cabbarov, R. (1961). Bakı, Azərnəşr, 448 s.
5. nuhcixan.az...» xəbərlər
6. https://aztehsil.com/psixoloq/100g-agird-
7. https: // kayzern.az»blog»şəxsiyyət...
8. https://rt82.ru»for-child-care-centers
9. http://az.heality-food-near-me.|>>...
10. "Psixologiya" jurnalı. (2007). 133 s.
11. "Psixologiya" jurnalı. (2008). 55 s.
12. "Psixologiya" jurnalı. (2008), s.73-74.

**Rəyçi: p.ü.f.d. Rəşid Cabbarov**

Göndərildi: 19.10.2022 Qəbul edildi: 28.11.2022